## Əmək münasibətlərinə vergi nəzarəti daha da gücləndirilir

İyulun 23-də Vergilər Nazirliyində əmək münasibətlərinə vergi nəzarətinin təşkili sahəsində kompleks tədbirlərin başlanması ilə əlaqədar vergi ödəyiciləri ilə görüş keçirilmişdir. Görüşdə işəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması məqsədilə Vergilər Nazirliyində yaradılmış Qərargahın üzvləri və 250-dək iri vergi ödəyicisinin nümayəndələri iştirak etmişlər.

Vergilər nazirinin birinci müavini, qərargah rəhbəri Natiq Əmirov tədbiri giriş sözü ilə açaraq son illərdə Azərbaycanın sosial-iqtisadi sahədə mühüm nailiyyətlər əldə etdiyini - sahibkarlığın inkişafının sürətləndiyini, istehsal və emal müəssisələrinin fəaliyyətə başladığını, yeni iş yerlərinin açıldığını, yoxsulluğun səviyyəsinin azaldığını bildirmişdir. Qeyd olunmuşdur ki, inkişafın keyfiyyətcə yeni mərhələsində ölkə başçısı İlham Əliyev iqtisadiyyatda şəffaflıq və hesabatlılığın artırılmasını, təsərrüfat subyektlərində maliyyə intizamının, ümumən, əmək bazarına nəzarətin gücləndirilməsini, vergidən yayınma hallarına qarşı mübarizə tədbirlərinin daha da genişləndirilməsini ciddi vəzifələr kimi müəyyənləşdirmişdir.

Ölkənin iqtisadi artım tempinin və əhalinin gəlirlərinin yüksəlməsinə baxmayaraq, muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi barədə vergi orqanlarına verilən hesabatların reallığı əks etdirmədiyini təəssüflə qeyd edən nazir müavini neqativ hallara qarşı qanun çərçivəsində mübarizənin gücləndirilməsi üçün xüsusi qərargahın yaradıldığını qeyd etmişdir. «Müşahidələr göstərir ki, bir sıra vergi ödəyiciləri, işəgötürənlər vergi və ödənişlərdən yayınmaq məqsədilə qanunvericiliyin tələblərini pozaraq işçilərlə əmək müqavilələri bağlamır, iş yerləri rəsmiləşdirilmədən onlara hər hansı işlərin görülməsini həvalə edirlər. Bundan başqa, iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan vergi ödəyicilərinin muzdlu işlə əlaqədar təqdim etdiyi vergi bəyannamələrindəki əmək haqqı məbləğləri təsərrüfat subyektinin real potensialı, eləcə də həmin sektor üzrə fəaliyyət göstərən və əmək haqlarının düzgün müəyyən edilməsinə üstünlük verən vergi ödəyicilərinin əmək haqqı məbləği göstəriciləri ilə uzlaşmır və onlardan hətta bəzən bir neçə dəfə aşağı olur. Elə bugünkü tədbirdə iştirak edən 250-dək şirkətin illik dövriyyəsinin ümumi həcmi 800 milyon manatdan çox olduğu halda, onların əksəriyyətinin təqdim etdiyi hesabatlarda işçi sayı və əmək haqqı reallığa uyğun deyil».

Belə hallara qarşı ciddi tədbirlərin həyata keçirildiyini deyən Natiq Əmirov son vaxtlarda 12 mindən çox iş yerinin rəsmiləşdirildiyini, Vergilər Nazirliyində yaradılmış Qərargahın bu istiqamətdə intensiv çalışdığını, maarifləndirmə və təbliğat işini gücləndirdiyini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, bəzi hallarda işçi sayı, əmlakı və dövriyyəsinin həcmi daha çox olan müəssisələrdə belə, direktor, baş mühasib, menecer kimi vəzifələr üçün müəyyənləşdirilmiş əmək haqları sıravi işçilər üçün nəzərdə tutulan məbləğlərlə eyni olur. Bundan başqa, bir çox işəgötürənlər vergi öhdəliklərini və sosial sığorta ayırmalarını minimallaşdırmaq məqsədilə işçilərlə əmək müqaviləsi əvəzinə mülki-hüquqi xarakterli xidmət müqavilələri bağlayırlar. İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi vergidən yayınma halları ilə yanaşı, muzdla çalışan işçilərin əmək hüquqlarını pozmaqla, onlara gələcək dövlət sosial təminatından da məhrum edir.

Nazir müavini həmçinin vurğulamışdır ki, əmək müqavilələrinin imzalanmaması işçilərin hüquqlarının kobud şəkildə pozulmasına gətirib çıxarır: «Şübhəsiz, iş üçün müraciət edən hər hansı vətəndaş obyektiv səbəblərdən işəgötürəndən onunla əmək müqaviləsinin imzalanmasını tələb edə bilmir. Ona görə də işəgötürənlər işçilərinin gələcək taleyi üçün hüquqi və mənəvi məsuliyyət daşıyırlar. Unutmaq lazım deyil ki, rəsmiləşdirilmiş iş yerlərində çalışan insanların pensiya təminatında da ciddi problemlər yaranır».

Əmək münasibətlərinə vergi nəzarətinin daha da gücləndirilməsi zəruriliyini diqqətə çəkən Natiq Əmirov gəlir vergisi üzrə vergitutma bazasının leqallaşdırılması istiqamətində vergi orqanlarının da üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd etmişdir. Bildirilmişdir ki, ölkənin dinamik iqtisadi inkişaf səviyyəsi və sahibkarların mövcud potensialı iş yerlərinin rəsmiləşdirilməsinə, vergi orqanlarına reallığı əks etdirən şəffaf hesabatların təqdim edilməsinə imkan verir: «Bu gün ölkədə cəmi 1378 min nəfər muzdla işləyən işçi var və bu da reallığı əks etdirmir. Bəzən bir sıra böyük şirkətlərdə guya 3-4 nəfərin işləməsi ilə bağlı vergi orqanlarına

hesabatlar verilir. Xüsusilə ticarət, xidmət və iaşə sahələrində belə nöqsanlara geniş rast gəlinir. Orta aylıq əmək haqqının 130-138 manat civarında göstərilməsi də reallıqdan tamamilə uzaqdır. Hələlik vergi ödəyiciləri ilə sivil əməkdaşlıq şəraitində bu problemlərin həllinə nail olmaq istəyirik. Amma kim qanunlara riayət etməyə həvəsli olmayacaqsa, biz onda bu həvəsi mütləq yaradacağıq. Belə hallara qarşı qanuni mübarizə aparmağa tam gücümüz çatır».

Vergi ödəyicilərinin nəzərinə çatdırılmışdır ki, işəgötürənlər iş yerlərinin qeydiyyatını düzgün aparmalı, fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsini Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməli, əməkhaqlarını real göstərməlidirlər. Qeyd olunmuşdur ki, iş yerlərinin rəsmiləşdirilməməsi, öz növbəsində, işəgötürənlər üçün ciddi maliyyə sanksiyaları və inzibati cərimələr deməkdir. Vergi orqanı tərəfindən əmək müqaviləsi bağlamadan işləri (xidmətləri) yerinə yetirdiyi aşkar edilən hər bir şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası və yayındırılmış vergi məbləğləri bərpa edilərək digər müvafiq sanksiyalar tətbiq olunur. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən, Əmək Müfəttişliyi tərəfindən əmək müqaviləsini (kontraktı) bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə - vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər 20000 manatdan 25000 manatadək cərimə edilirlər.

Tədbirdə çıxış edən vergi ödəyicisi Şəfayət Əliyev ölkədə əmək bazarına nəzarətin gücləndirilməsi və bu sahədə şəffaflığın təmini sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirdiyini demişdir. O, əmin olduğunu bildirmişdir ki, həyata keçirilən tədbirlər vergi ödəyicilərinin də fəaliyyətinin qanuni müstəvidə tənzimlənməsinə imkan verəcəkdir.

Vergi ödəyicisi Azər Əsgərovun sözlərinə görə, Vergilər Nazirliyinin bu sahədə davamlı olaraq həyata keçirdiyi tədbirlər, ilk növbədə, insanların əmək hüquqlarının qorunmasına, işçilərlə işəgötürənlər arasında qarşılıqlı hüquqi məsuliyyətin artırılmasına xidmət edir.

Vergi ödəyicisi Tofiq Mehdiyev isə hesab edir ki, bir çox təsərrüfat subyektlərində ikili mühasibatın aradan qaldırılması, iş yerlərinin rəsmiləşdirilməsi son nəticədə büdcəyə daxilolmaların həcminin də artımına imkan yaradacaq, insanların rifahının yaxşılaşmasına təkan verəcəkdir.

Görüşdə vergi ödəyicilərini maraqlandıran suallara aydınlıq gətirilmişdir.

S.MUSTAFAYEV